*MƏRSİYƏ REKVİYEM*

“Gəlmişəm!” – səsləndi ölüm bir anda,
Gözəl bir insana necə qıydı O?
Sən bir arxaya b ax!
Böyük bir xalqa Arxa olan kəsin arxasıydı O.

Hökmünü verməkdə ölüm zirəkdi,
Həyatın üstünə qəhqəhə çəkdi.
Bu boyda dünyanı elə bil, bu dəm
İynənin gözündən keçirəcəkdi...

Ölüm kəmfürsətdi, vaxtı itirməz,
Bir anlıq əcələ macal da verməz.
Gəldisə yaxşıya, yamana baxmaz,
Uşağa, qocaya, cavana baxmaz.

Hər kəsin alnına basar möhrünü,
Zamanı saxladar zaman içində.
Qayğıyla bəslənən yüz illik ömrü
Alar əlimizdən bir an içində.

Nə qədər dünyada yaşayırıq biz,
Ölüm – sanırıq ki, bizdən uzaqdır.
Elə bilirik ki, bizim ömrümüz
Ömürdən o yana uzanacaqdır.

Belə düşünürük... ötür fəsillər.
Ölüm?..
Bir səs deyir: - Yox, hələ tezdir.
Onu da bilirik,
Axışan illər,
Ölümə uzanan əllərimizdir.

Bu necə dünyadır, anlamıram mən.

Cilvəsi cürbəcür, rəngi cürbəcür.
Dünən nəfəsilə səni isidən,
Bu gün buza dönür, torpağa dönür.

2.

“Gəlmişəm!” – Bağırdı ömür bir anda,
Gözəl bir insana necə qıydı o?
Sən bir ağrıya bax!
Böyük bir xalqa
Arxa olan kəsin arxasıydı O.

Əgər arxadırsa qadının sənə,
Meydan oxuyarsan min-min düşmənə.
Qadının düşmənsə, eynin açılmaz,
Min dost köməyindən bir xeyir olmaz.

İşdən qanı qara evə dönəndə,
Dünya gözlərinə tor görünəndə,
Könül sirdaşının bir xoş baxışı,
Bir xoş təbəssümü sənə can verər,
Dünyanı gözündə gözəlləşdirər.

Eşitdim beləymiş könül sirdaşın,
Elə bununçün də sənin göz yaşın
Axdı bulaq kimi...
Anlayıram mən.
Sındı Zərifə də zərifliyindən.

İşıqsız gözlərə nur verən insan,
Gözlərə verdiyi nurdan, işıqdan
Qəlbinə don biçib ilk bahar kimi,
Zərif olmalıydı gözdə nur kimi.
Bugünkü matəmdə zaman elə bil,
Sənin arzun ilə üz-üzə durmuş.

Kişilər –
Anası öləndə deyil,
Qadını öləndə yetim olurmuş...

Səni sevdiyindən o, istədi ki,
Sən yola salasan dünyadan onu.
Bəlkə o, bilmədi, bu itkinin
Sevimli əriyçün nə olduğunu.

O qıymazdı sənin göz yaşlarına,
Qıymazdı o solğun baxışlarına.
Qıymazdı, başını əyəsən bu gün,
Qıymazdı, sinəndə ağlasın ürək,
Sən onun ruhunu incitməməkçün
Onun dərdinə də dözəsən gərək.

Budur yaranmışın ilki və sonu,
Qardaşım, mən yaxşı bilirəm bunu:
Bu ağır dərdi də bölüşmək üçün,
Yenə Zərifəni axtarır gözün.

Yol - qəmdən sevincə,
Sevincdən - qəmə!
Bu yol - ta əzəldən belə qoyulmuş.
Sən indi kədərlə: “O yoxdur” – demə
Ona təşəkkürlə de ki: “O, olmuş!”

3.

Axır qəbristana el, axın-axın,
Başlarda çətirlər yaşıl, qırmızı.
Qəbrin nurla dolsun!
Mənim xalqımın
Novo-Deviçyede yatan tək qızı!

Aslan tək yaşadın aslan yanında,
Mərdliyin səbəbi mərddən sorulmaz.
Aslan da aslana arxalananda,
Aslanın erkəyi,dişisi olmaz.

Sən hörmət qazandın ləyaqətinlə,
Hörmət qazanılmaz qəzəblə, kinlə.
Hər şeyi dərk edir; insan büt deyil,
İçində yatdığın o tabut deyil,
Ləyyaqət taxtıdır, ləyaqət taxtı!
Başlardan yuxarı səni ucaltdı.

Bu bahar günündə yağmurlu göy də,
Bu gün için-için qan ağlayırdı.
Sənin matəminə Üzeyir bəy də
“Sənsiz”in dililə yas saxlayırdı.

Bayaqdan süzürəm mən izdihamı,
Yağışın altında dayanıb hamı,
Səni son mənzilə
Ötürür belə...

Qardaşım, bu böyük izdiham, bu gün
Qoy olsun azacıq təskinlik sənə.
Sonsuz kədərini azaltmaq üçün
El-oban yığılıb sənin dövrənə.

Qəmə şərik varsa, qəmi adla keç,
Gör, necə dikilib üzünə gözlər.
Sevinci böləndə çoxalar sevinc,
Kədəri böləndə azalar kədər.

Şər ilə qardaşdır, dünyanın toyu.
Vaxt ötür, bu sonsuz axarda qardaş.
Ancaq ömrün boyu, həyatın boyu
Sən ki, yaşamısan vüqarla qardaş!

Bu vüqar önündə biz də baş əydik,
Kaş, səni bu halda biz görməyəydik.
Əgər sən əyilsən,
Sınmış bil bizi.
Əvvəlki vüqarla yaşa, yaşat sən,
Səninlə fəxr edən ellərimizi!

***Bəxtiyar Vahabzadə***

***17-18 aprel 1985-ci il, Moskva***

***Zərufə xanım Əliyeva. – B. : 1998. – S.11-12.***